

Zakir Bağır

# Düyünlər

## 23 il "Leninçi" indiki "Lənkəran" qəzetinin redaktoru işləmiş şair Şəkər Aslanın xatirəsinə

**Povest**

**(əvvəli qəzetin 14 iyun sayında)**

Məsul katib replika atdı:

-Onun ki belə yazmağa səriştəsi vardı, indiyə kimi niyə biruzə vermirdi?

Şöbə müdirlərinin biri bildirdi:

-Birdən-birə çiçəklənmə başlanıb.

Seyransa özünü eşitməzliyə vurdu. O, korrektorun əlini sıxıb mükafatı ona təqdim etdi.

-İndi də icazə verin, bu fəxri fərmanı qəzetimizin ştatdankənar muxbiri Zaman Səfərova verim.

Könülsüz ayağa qalxdım.

...Redaktor məzuniyyətdən təzə qayıtmışdı. Yanına getdim. O , mənim işlərimlə maraqlandı. Tez-tez respublika mətbuatında çıxış etməyimi bəyəndi. Söhbətin şirin yerində telefon səsləndi. Səyyad müəllim dəstəyi götürdü.

-Salam həmişə iş başında.

-Çox sağol Genişoğlu.

-Hə, onu deyəcəkdim. Bilirsəndə, ali məktəblərdə imtahanlar yaxınlaşır. Qardaşıma bir zəmanət ver, qoy sənədlərini aparsın.

-Genişoğlu sizin qardaşınızdan heç vaxt jurnalist çıxmaz. Səhv etmirəmsə bunu sizə bir dəfə demişəm

Telefonda gülüş səsi eşidildi:

-Dünyadan xəbərin yoxdur, ay Səyyad Rüstəm. Qardaşım idman yazılarına görə üç böyük idarənin mükafatına layiq görülüb. Sən isə ona zəmanət vermək isdəmirsən.

-Bu ola bilməz...

-Birazdan sürücümü göndərəcəyəm, zəmanəti yazıb verərsən ona.

-Mən zəmanət verməyəcəyəm.

Genişoğlu dəsdəyi yerə qoymuşdu.

Redaktor müavini çağırdı. Seyranov əlində bir neçə vərəqə içəri girdi.

-Müsabiqənin mükafatları gəldimi?

-Siz məzuniyyətdə olarkən gəlmişdi. Təntənəli şəkildə təqdim etdim.

-Mükafat kimlərə gəlmişdi?

-Qəzetimizin ştatdankənar muxbiri, müavin məni göstərdi. Zaman Səlimov, bir də yoldaş Genişoğlunun kiçik qardaşına.

-Ona niyə?

Seyran udqundu. Bir müddət nə deyəcəyini bilmədi:

-Axı o da idman mövzusunda yazır.

Redaktor heyrətlə soruşdu:

-Təzə başlayıb?

Müavinin dili dolaşdı:

-Yox... hə...

Seyranov özünü gec ələ aldı:

-Ştatdankənar Zaman Səlimovun yazıları qəzetimizdə tez-tez dərc olunur. O, hərdən bəzi yazılarını Genişoğlunun imzası ilə dərc etdirir. Əlbətdə, qonorarı özü alır. -Müavin əlindəki yazını göstərdi. Oçerkdir. Birlikdə yazıblar.

Redaktor oçerki nəzərdən keçirdi. Yazı mənim idi. İmza ikimizin.

Səyyad Rüstəm mənə baxdı:

-Niyə belə hərəkətlərə yol vermisən?

Məsələni danışdım.

-Müavininiz bildirdi ki, siz belə məsləhət görmüsünüz. Oçerki tək yazmışam. Genişoğlunun bundan xəbəri yoxdur.

-Mən belə söz deməmişəm

Müavin rəng verib rəng aldı.

-Bu nə deməkdir, Seyranov?

-Burada nə pis iş var ki, Səyyad müəllim? Onsuzda Zaman Səlimov həmən yazıların qonorarlarını alıb. Genişoğluna isə istuta girmək lazımdır. Əgər o, müsabiqə qalibi olsa, biz ona zəmanət versək, az-çox çap olunmuş yazıları olsa, jurnalistika fakültəsinə girə biləcəkdir. Onda bizimdə Genişoğlunun yanında hörmətimiz artar.

Redaktor sərtləşdi:

-Demək saxtakarlığa yol verək? Istedadlı jurnalist, - o, məni göstərdi, - işsiz qalıb. Bir xət belə yaza bilməyən adamı müsabiqə qalibi edək? Hələ zəmanət də verək ki, qoy jurnalistika fakültəsinə girsin? Nəyə görə? Ona görə ki, Genişoğlunun qardaşıdır?

Bu hadisədən sonra redaktor müavini mənə soyuq münasibət bəsləməyə başladı. Salamımı da başı ilə alırdı. Ara-sıra replika atırdı. Oçerk və zarisovkalarımda nöqsan axtarır, letuçkada bu barədə geniş danışırdı.

İdman sahəsindən xəbərsiz olan Seyranovun sözləri gülüş doğursa da, əməllərindən əl çəkmirdi.

Bir neçə gündən sonra daha bir zərbə aldım. Redaktorun məsləhəti ilə idman səhifəsi hazırladım. Materialları Səyyad müəllimə təqdim etmək üçün yanına getdim. O, qəzetin növbəti səhifəsini çapa hazırlayırdı.

-İdman səhifəsinin yazılarıdı.

-Qoy qalsın oxuyaram.

Telefon zəng çaldı. Redaktor dəstəyi götürdü.

-Genişoğlu? Salam...

-Salam, Səyyad. Bilmək isdəyirəm sizin qəzetdə Zaman Səlimovdan başqa yazan yoxdur?

Redaktor heç nə başa düşmədi

-Necə məgər?

-Balam hər nömrədə onun yazılarını verirsiniz

-Genişoğlu, Zaman yaxşı jurnalistdir. Yaxşı yazdığı halda niyə yazılarını verməyək?

-daha hər nömrədə yox də.

...Redaktor nə qədər üz vursa da, rayon qəzeti üçün az yazırdım. Respublika mətbuatında, xüsusilə "Bədən tərbiyə" jurnalında yazılarım vaxtaşırı çap olunurdu.

... Rayonda yerli radio verlişləri redaksiyası fəaliyyətə başlamışdı. Xalis baş redaktor təyin olunmuşdu. Redaktor və xüsusi muxbir ştatları boş idi.

Vaxtaşırı rayon radiosu üçün verlişlər hazırlayırdım.

Səyyad Rüstəm və Xalis də bildirmişdi ki, redaktor vəzifəsinə yeganə namizədsən

İşə həvəslə girişmişdim.

Günlərin bir günü böyük həvəslə hazırladığım yazıları Xalis müəllimə təqdim etmək üçün radio verlişləri redaksiyasına getdim. Baş redaktorun qanı qara idi.

-Nə olub Xalis müəllim?

-Heç...

Bu an dodağında siqaret olan bir oğlan içəri girdi.

Araq iyi içərini bürüdü.

-Mənim işim nə olacaq? - soruşdu.

Xalis müəllim tapşırıq verdi. Oğlan otaqdan çıxdı.

-İndi gəl beləsi ilə işlə görüm necə işləyirsən? -Genişoğlunun xalası oğludur. Redaktor işləyəcək.

Bir neçə gündən sonra xüsusi muxbir ştatı da tutuldu. Bu vəzifəyə Genişoğlunun onuncu sinfi təzəcə bitirmiş bacısı oğlu təyin olunmuşdu.

Xalis müəllim yazıq-yazıq dilləndi:

-Mən nə edə bilərəm? Genişoğlu ilə kəllə-kəlləyə gələ bilmərəm ki...

Evə qanıqara gəldim. Yol boyu düşündüm: Bığ dalınca gəlmişdim saqqalı da qırxmalı oldum. Rayona gəldim anama, kiçik bacı və qardaşlarıma köməyim dəysin, onlara artıq yük oldum.

Anam məni heyrətlə qarşıladı.

-Sənə teleqram gəlib

Alıb baxdım. "Bədən tərbiyəsi" jurnalının redaktoru məni redaksiyaya çağırırdı.

Anam dedi:

-Elə bu axşam get bala. Kişinin bəlkə sənə bir sözü var.

Anama baxdım. Hər şeyi başa düşdü.

-Pul sarıdan arxayın ol, bu gün avans almışam

Anam tikiş fabrikində işə girmişdi.

...İmran müəllim məni gülərüzlə qarşıladı.

-Jurnalımız iki nəşriyyatdan sifariş alıb.Birinci nəşriyyata 10 çap vərəqesi həcmində oçerklər almanaxı verməliyik. Plana sənin də oçerkini salmışam. İkinci nəşriyyat üçün üç çap vərəqi həcmində oçerklər hazırlamalısan. Hər iki kitabın redaktəsi mənə tapşırılıb. İki aya yazıları gətir.

Otaqdan çıxanda İmran məllim bildirdi:

-Bu gün maaş günüdür. Qonorarlarını alıb gedərsən.

Mühasibatdan çıxandan sonra şəhəri gəzdim. Anam kiçik bacı və qardaşlarım üçün bəzi şeylər aldım.

Həmin gündə geri qayıtdım. Tapşırığı vaxdında yerinə yetirmək lazım idi.

Anam dedi:

-Səni Sadıx müəllim istəyirdi.

Şahmat məktəbinə getdim. O, uşaq-gənclər şahmat məktəbinin direktoru idi.

-Sabahdan məktəbimizdə məşqçi müəllim işlə.

O, dəsdəyi götürüb maarif şöbəsinin müdiri ilə danışdı.

-Mən etiraz etmirəm. Hər halda yoldaş Genişoğlu ilə məsləhətləşsən pis olmaz.

-Hə vaxta kimi Genişoğlunun çaldığı hava ilə oynamalıyıq? Zaman Səlimov ali təhsillidir. Dərəcəli idmançıdır. Yaxşı qələmi var. Bu vəzifəyə layiq bilib götürürəm.

Telefonda maarif şöbə müdirinin səsi eşidildi:

-Məsuliyyəti öz boynuma götürmürəm.

Sadıx müəllim dəsdəyi qoydu. Mənə müraciət etdi:

-Sabahdan işə başla, oğul.

Rayonumuzda uşaq-gənclər şahmat məktəbi təzəcə yaradılmışdı. Çox şey çatışmırdı. Çox şey öz yerində deyildi. İşə həvəslə girişdim. Bakı şahmat məktəbləri ilə əlaqə saxladıq. Metodiki vəsaitlər əldə etdik.

Sadıx müəllim hər dəfə məni tərifləyəndə zarafatından da qalmırdı:

-Doşab almışıq, bal çıxıb.

...Oçerkləri vaxdında hazırlayıb təhvil verdim. Şən idim. İşə gələndə direktorun otağında çoxlu adam gördüm. Maarif şöbəsinin müdiri də burada idi. Içəri girəndə müəllim yoldaşlarımdan biri pıçıldadı:

-Səndən imzasız məktub yazıblar...

Kommissiyanın sədri şagird dəftəri vərəqəsində yazılmış məktubu mənə verdi. Ucadan oxumağa başladım: Zaman Səlimov ali məktəbdən qovulmuşdu. Buna fakt lazımdırsa gətirə bilərəm. O, Bakıda filan idarədə işləməli idi. Amma işləməyib. Ona görə ki, ali məktəb diplomu yoxdur. Zaman da məcbur olub rayona qayıdıb. Yoxsa gül kimi şəhəri qoyub, kim rayona gələr? Onun diplomu varsa bəs niyə rayon qəzetində və ya radiosunda işləməyib? Diplomsuz bir adamı uşaq-gənclər şahmat məktəbinin direktoru işə götürüb. Bunun səbəbi aydındır. Zamanın atası Sadıx müəllimin dostudur.

Məktubu oxuyub başa çatdırdım.

-Faktlarla razısınızmı? -Kommissiyanın sədri otaqdakılara müraciət etdi.

Sadıx müəllim ayağa qalxdı:

-Yox. Əvvəldən Zaman Səlimovun rəhmətlik atası ilə dost olmamışam. Düzdür, orta məktəbdə bir sinifdə oxumuşuq. Adətən bir sinifdə 30-35 şagird oxuyur. Hamı bir-birilə dosdluq edirmi? Qaldı Zamanın ali təhsilli olub-olmamasına, ali təhsillidir. Yaxşı qələmi də var. Baxın, bu da onun diplomunun surəti. Çox vacibdirsə evdən diplomunun özündə gətirə bilər. Bəs niyə Bakıda qalmayıb rayona gəlib? Onu da deyə bilərəm...

Sadıx müəəlim danışırdı. Əsəbiliklə danışırdı.

Yoxlama uzun çəkdi. Komissiya üzvləri gedəndən sonra direktor dedi:

-Böhtan ağ parçaya düşmüş qara ləkəyə bənzəyir. Tez hiss olunur. Həyatda belə şeylər çox olur. Cavansan hələ, bərkiməmisən. Həyat bizi sınayır.

Günlər bir-birindən xəbərsiz ötürdü. Məni maarif şöbəsinə çağırdılar. Sadıx müəllimlə getdim. Müdir istehzalı baxışlarla Sadıx müəllimi süzdü. Sanki baxışları ilə ona deyirdi: Bəs sənə demədim, Genişoğlunun icazəsi olmadan onu işə götürmə? Sözümə baxmadın. İndi gəl cavab ver. Komissiyanın biri gedir, biri gəlir.

Maarif şöbəsinin müdiri ayağa qalxdı.

-Yoldaşlar, buraya yığışmağımızın səbəbi məncə sizə aydındır. Respublikamızın ən mötəbər jurnalı olan "Bədən tərbiyəsi" - nə rayonumuzun uşaq-gənclər şahmat məktəbinin müəllimi Zaman Səlimov barəsində imzasız məktub daxil olmuşdur. Bu məqsədlə jurnalın xüsusi muxbiri İlham məmmədov rayonumuza ezamiyyətə gəlmişdir. Sözü ona verirəm.

**(ardı növbəti sayımızda)**